

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 73 (23.235)

*20 aprel 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Naxçıvan Məhsulları" publik hüquqi şəxsin yaradılması və muxtar respublikada ərzaq məhsullarının istehsalı, tədarükü və təchizatı işinin tənzimlənməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin tabeliyində olan "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında "Naxçıvan Məhsulları" publik hüquqi şəxs yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini, işçilərinin say həddini və strukturunu təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 aprel 2019-cu il*

## Daxili işlər orqanları öz işlərini günün tələbləri səviyyəsində qurub

### *Bunu birinci rübün statistikası da təsdiq edir*





Günü-gündən inkişaf edən muxtar respublikamızda insan və vətəndaş hüquq və azadlıqlarına hörmət prinsipinə ciddi önəm verilir. Öz fəaliyyətini bu prinsip əsasında quran Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən vətəndaşlara göstərilən xidmətlərin timsalında bunu bariz şəkildə görə bilərik. Müasir iş şəraitinin yaradıldığı, güclü əmək intizamının bərqərar edildiyi nazirlikdə yeni iş metodlarının tətbiqi diqqət mərkəzində saxlanılır, vətəndaş-polis münasibətləri daha da genişləndirilir. Bütün bunlar isə qarşıya qoyulan vəzifələri günün tələbləri səviyyəsində yerinə yetirmək üçün başlıca amillərdəndir.

Nazirliyin mətbuat xidmətindən aldığımız məlumata görə, nazirlik 2019-cu ilin birinci rübündə də insan və vətəndaş hüquq və azadlıqlarına hörmət prinsipini əsas götürüb. Belə ki, bəhs olunan dövrdə ümumvətəndaşlıq pasportu və şəxsiyyət vəsiqələri almaq üçün müraciət edən vətəndaşlara xidmət yüksək səviyyədə qurulub, müraciətlərə vaxtlı-vaxtında əməl olunması diqqət mərkəzində saxlanılıb, 6 min 872 nəfərə ümumvətəndaş pasportu, 6 min 974 vətəndaşa şəxsiyyət vəsiqəsi verilib. Bu işdə, bir neçə ildir ki, yaradılan nazirliyin səyyar xidmətinin fəaliyyəti də qeyd olunmalıdır. Qrafik əsasında yerlərdə xidmət göstərən səyyar xidmət əhalinin vaxt itkisinin qarşısını alıb. Bu xidmətdən istifadə edənlərin sayı getdikcə artmaqdadır. Rüb ərzində öz fəaliyyətini davam etdirən xidmət tərəfindən verilən pasport və şəxsiyyət vəsiqələrinin sayı 1291-ə çatıb.

Sosial-iqtisadi inkişafın göstəricilərindən biri də muxtar respublikaya gətirilən xarici avtomobillərin sayının getdikcə artmasıdır. Ekoloji tarazlığın saxlanması, vətəndaşların sağlam mühitdə yaşamaq hüququnun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 yanvar tarixli "Naxçıvan Muxtar Respublikasının ərazisində istifadəyə buraxılan avtonəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması haqqında" Qərarına əsasən muxtar respublika ərazisinə gətirilən avtomobillərin beynəlxalq standartlara uyğunluğu nəzərə alınmaqla bəhs edilən dövrdə 41-i ilkin, 1345-i təkrar olmaqla, ümumilikdə, 1386 nəqliyyat vasitəsi qeydə alınıb. Nəqliyyat vasitələrinin sahibləri avtomobillərinin qeydəalınma prosesində heç bir çətinliklə üzləşməyiblər.

Məlumatda deyilir ki, nazirliyin aidiyyəti əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində axtarışda olanların tutulması 100 faiz təşkil edib. Bununla yanaşı, mülki hüquqi öhdəliklərin icrasından yayındığı və məhkəmə qərarı ilə axtarışda olan 9 nəfərdən 6-sı tutulub, biri isə aidiyyəti üzrə göndərilib.

2019-cu ilin birinci rübündə qanunsuz saxlanılan silahların könüllü təhvil verilməsi ilə bağlı aparılan maarifləndirici tədbirlər də davam etdirilib. Nəticədə, 123 silah təhvil götürülüb. Qeyd edək ki, bu dövrdə keçmiş illərdən qalmış bir cinayət işi də açılıb.

Bəhs edilən müddət ərzində yol-nəqliyyat hadisələrinin sayının da xeyli azalması həyata keçirilən profilaktik tədbirlər hesabına mümkün olub. Belə ki, rüb ərzində yol-nəqliyyat hadisəsi nəticəsində 1 nəfər ölüb, 1 nəfər isə xəsarət alıb.

Cari ilin üç ayı ərzində yol patrul xidməti tərəfindən 4450, polis inspektorları tərəfindən 278, digər aidiyyəti xidmətlər tərəfindən 14 olmaqla, ümumilikdə, 4742 protokol tərtib edilib.

Bütün bunlar isə onu göstərir ki, muxtar respublikanın daxili işlər orqanlarında yaradılmış sağlam xidmət şəraiti öz bəhrələrini verir. Bu isə vətəndaşlar tərəfindən yüksək dəyərləndirilir, onların asayişin keşiyində ayıq-sayıq dayanan polis əməkdaşlarına rəğbəti artır.

✍ **Muxtar MƏMMƏDOV**

*Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatında 2019-cu ilin I rübündə görülən işlər və qarşıda duran vəzifələrlə əlaqədar şura iclası keçirilib.*

## Növbəti şura iclasları keçirilib



Tədbirdə rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov məruzə edib.

Bildirilib ki, 2019-cu ilin 3 ayında 22 nəfər partiyaya üzv qəbul olunub, onlardan 16-sı gənc, 10-u qadındır. Rayon təşkilatı gənclərlə, qadınlarla aparılan işlərə xüsusi diqqət yetirir. Gənclər Birliyinin, Qadınlar Şurasının fəaliyyəti gücləndirilir. Gənclər Birliyi ilə rayon Gənclər və İdman İdarəsi birgə tədbirlər hazırlayıb həyata keçirirlər. Rayonun ictimai-iqtisadi həyatında, keçirilən müxtəlif mədəni-kütləvi tədbirlərdə, çağırışçıların yolasalma mərasimlərində, idman yarışlarında, müsabiqələrdə gənclər fəal iştirak edirlər.

Qadir İbrahimov diqqətə çatdırıb ki, 2019-cu ilin I rübündə fəaliyyətimizdə olan bəzi nöqsan və çatışmazlıqlar rayon təşkilatının idarə heyəti və şura iclaslarında geniş müzakirə və təhlil olunub, onların aradan qaldırılması üçün müvafiq qərarlar qəbul edilib. Bu ilin aprel-may aylarında ərazi ilk təşkilatlarında keçiriləcək hesabat-seçki yığıncaqlarına, rayon təşkilatının XI konfransına və bu ilin payızında ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq işləri görülür.

Müzakirə olunan məsələlərlə əlaqədar Gənclər Birliyinin üzvü, 2 nömrəli tam orta məktəbin ərazi ilk təşkilatının sədri Rauf Hüseynov, Qadınlar Şurasının sədri Xanım Tağıyeva, Statistika İdarəsi ərazi ilk təşkilatının sədri Rasim Məmmədov çıxış ediblər.

Sonda bir qrup gənc Yeni Azərbaycan Partiyası sıralarına üzv qəbul olunub.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

* * *



Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatında keçirilən şura iclasında 2019-cu ilin ilk rübünün yekunları müzakirə edilib, qarşıda duran vəzifələrdən söhbət açılıb. Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, rayon təşkilatı öz fəaliyyətini partiyanın Nizamnamə və Proqramına, təşkilatın müəyyən olunmuş müvafiq iş planına və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələbləri səviyyəsində qurub.

Diqqətə çatdırılıb ki, 2019-cu ilin birinci rübündə təşkilatın 1 şura iclası, 3 idarə heyəti yığıncağı keçirilib. Partiya yığıncaqlarında görülən işlərin hesabatı dinlənilib, işin keyfiyyətinin artırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilib. 2019-cu ilin birinci rübündə ərazi ilk partiya təşkilatlarında gənc və yaradıcı qüvvələrin Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilməsinə nail olunub, gənclərlə iş daim diqqət mərkəzində saxlanılıb.

Yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirən təşkilat sədri qeyd edib ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı bundan sonra da fəaliyyətini Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının iclasında qarşıya qoyulan vəzifələrə uyğun quracaq, partiya üzvləri muxtar respublikanın ictimai-siyasi həyatında daha fəal iştirak edəcəklər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Gənclər Birliyinin sədri Süleyman Süleymanov, Xok kənd ərazi ilk partiya təşkilatının sədri Zülfü Seyidov, Böyükdüz kənd ərazi ilk partiya təşkilatının sədri Vaqif Babayev çıxış ediblər.

Şura iclasında müzakirəyə çıxarılan məsələ ilə əlaqədar qərar qəbul olunub.

**Babək İSMAYILOV**

## Arxiv işinin təşkilinin əsasları

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində komitə arxivinin, şəhər və rayon idarələrinin əməkdaşları üçün "Arxiv işinin təşkilinin əsasları" mövzusunda qısamüddətli təlim keçirilib.*



Təlimi giriş sözü ilə komitənin sədri Müslüm Cabbarzadə açaraq iştirakçıları məlumatlandırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin direktor müavini Zakir Hacıyev "Arxiv işinin təşkilinin əsasları" mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada bu sahəyə xüsusi diqqət yetirilir, arxiv sənədlərinin qorunması və saxlanması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bunun nəticəsində muxtar respublikamızda arxiv işi tam formalaşdırılıb, bu sahənin maddi-texniki bazası möhkəmləndirilib, zəngin arxiv fondları yaradılıb. Bu şərait arxiv fondlarında saxlanılan yüz minlərlə sənədin etibarlı şəkildə mühafizə olunmasına imkan verir.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Ümumi işlər və təsərrüfat şöbəsinin müdiri Tural Cəfərovun, Arxiv işi üzrə xidməti vəzifələr və informasiya texnologiyaları və məlumat bazası şöbəsinin müdiri Arzu Məmmədovun mövzu ilə bağlı çıxışları dinlənilib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

✍ **Pərviz HACILI**

## "İdeyadan başlanğıca" layihəsi çərçivəsində təlim olub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar "İdeyadan başlanğıca" devizi altında növbəti təlim keçirilib.*



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi ilə birgə keçirilən tədbiri ali təhsil ocağının prorektoru Rafiq Rəhimov açaraq sərəncamın əhəmiyyətindən, hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqələrin genişlənməsindən, hamiliklə bağlı görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Keçirilən təlimlərin əhəmiyyətini vurğulayıb.

Sonra Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru Sevinc Cabbarovanın "İdeyadan başlanğıca" mövzusunda təlimi dinlənilib. O, təqdimatında tələbələrə innovativ layihələrin işlənib hazırlanması, əsaslandırılması, təqdim olunması, müxtəlif modellərlə layihələrin təhlil edilməsi, möhkəmləndirilməsi və inkişaf etdirilməsi haqqında məlumat verib.

Tələbələr tərəfindən irəli sürülən bir sıra ideyalarla bağlı geniş müzakirələr aparılıb. Müzakirələrdə fəal iştirak edən 4 tələbə Maliyyə Tədris Mərkəzi tərəfindən keçiriləcək "Kargüzarlıq işinin aparılması" adlı təlimdə iştirak etmək hüququ qazanıb və onlara "Hədiyyə sertifikatı" təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

# Kitab təqdimatı keçirilib

*Naxçıvan Dövlət Universitetində "Naxçıvan Muxtar Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri" kitabının təqdimat mərasimi keçirilib.*



Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid təqdimat mərasimində çıxış edərək bildirib ki, ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən ekoloji strategiya bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Ötən dövr ərzində ekoloji mühitin yaxşılaşdırılması, biomüxtəlifliyin qorunması üçün ətraf mühitə olan neqativ təsirlər minimuma endirilib, iqtisadi inkişafda müasir texnologiyalar tətbiq edilib, alternativ enerji mənbələrindən istifadəyə üstünlük verilib. Füsunkar estetik gözəlliyə malik ərazilərin, flora və fauna növlərinin qorunması, ekoloji tarazlığın gözlənilməsi, biomüxtəlifliyin mühafizəsi və bərpa edilməsi, təbii mühit unikallığının, nadir və nəsli kəsilmək təhlükəsi olan növlərin saxlanılması üçün xüsusi mühafizə olunan təbiət əraziləri yaradılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında təbiətin qorunması, ekoloji tarazlığın diqqətdə saxlanılması, xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilində əldə edilən uğurlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada apardığı uğurlu ekoloji siyasətin nəticəsidir. Həyata keçirilən məqsədyönlü siyasət, sosial-iqtisadi inkişaf, ekoloji strategiya xüsusi mühafizə olunan təbiət ərazilərinin daha da inkişaf edəcəyini, müasir tələblərə uyğun şəkildə təkmilləşəcəyini deməyə əsas verir.

Qeyd olunub ki, həyata keçirilən ekoloji tədbirləri əhatə edən və muxtar respublikanın biomüxtəlifliyini özündə əks etdirən "Naxçıvan Muxtar Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri" adlı kitab-albomun nəşri bu sahəyə göstərilən dövlət qayğısının ifadəsidir. Kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2019-cu il üçün nəşr planına uyğun olaraq çap edilib. Yeni nəşrdə milli qoruq və parklar haqqında geniş məlumatlar, onların coğrafi mövqeyi, qədim tarixə malik mədəniyyət abidələri, Qırmızı kitaba daxil olan flora və fauna növləri öz əksini tapıb. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatda 300 tirajla nəşr olunan bu kitab Naxçıvan təbiətinin dünyada tanıdılması, bu sahənin tədqiqinə akademik və elmi yanaşmaya tələbatın və marağın artması baxımından əhəmiyyətlidir. Albom-kataloqda əlverişli coğrafi mövqeyin təqdim edilməsi Naxçıvanın turizm potensialının inkişafına, bu ərazilərə turistlərin cəlb olunmasına xidmət məqsədi daşıyır.

Vurğulanıb ki, kitabda adları çəkilən ərazilərə səyahət edən turistlərə bələdçilər vasitəsilə piyada və atla gəzinti turları, qayaya dırmanma-alpinizm və dağ velosipedi ilə veloturlar kimi xidmətlər təklif olunur. Yaradılan və mühafizə edilən qoruq və parklar ali məktəb tələbələri üçün istehsalat təcrübələrinin keçirilməsində əyanilik baxımından xüsusi əhəmiyyətlidir. Əminliklə demək olar ki, kitab-kataloqun nəşri vasitəsilə bu sahənin tədqiqinə marağın artması ali təhsil ocaqlarında Naxçıvanın milli qoruq və parkları, ümumiyyətlə, Naxçıvan ekologiyası və təbiəti haqqında seçmə fənnin tədrisinə həsr olunmuş dərs vəsaiti və proqramların nəşri məsələsinə də elmi müstəvidən baxmaq zərurəti yaradacaqdır.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev çıxışında qeyd edib ki, müasir dövrümüzdə təbiətin qorunması, əlverişli ekoloji mühitin yaradılması əhəmiyyətli olduğu kimi,



həm də bu sərvətlərdən insanların sosial-rifahının yaxşılaşdırılması, turizm-rekreasiya məqsədilə istifadə olunması da aktual məsələdir. Bunun üçün xüsusi mühafizə olunan təbiət ərazilərinin, əsasən də milli parkların yaradılmasına daha çox üstünlük verilir. Bu gün muxtar respublikada həyata keçirilən ekoloji tədbirlərin əsasında ətraf mühitin qorunması sahəsində fəaliyyətin gücləndirilməsi, milli, regional, beynəlxalq səviyyədə təbii ehtiyatlardan indiki və gələcək nəsillərin maraqlarını təmin etməklə səmərəli istifadə dayanır. Görülən işlərin nəticəsidir ki, beynəlxalq təşkilatlar diyarımızda həyata keçirilən ekoloji tədbirləri yüksək qiymətləndirir, nüfuzlu ekspertlər görülən işləri nümunə kimi qəbul edirlər.

Bildirilib ki, bu gün təqdimatı keçirilən kitab ekoloqlar, təbiətsevərlər və eyni zamanda bu sahə ilə maraqlanan bütün insanlar üçün əhəmiyyətli mənbədir. Nəşrdə Naxçıvan təbiətinin gözəlliklərinə, ekoturizm potensialına xüsusi yer verilib ki, bu da turizmin təbliğ edilməsi, tanıdılması baxımından mühüm önəmə malikdir.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Təriyel Talıbov çıxış edərək muxtar respublikamızda qorunub saxlanılan flora və fauna növləri haqqında, eləcə də qoruqların, yasaqlıqların önəmi ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib.

Naxçıvan Dövlət Universitetinin Coğrafiya kafedrasının müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Əli Həsənov çıxışında yeni nəşrdə yer alan materiallar, onların tələbə və gənclər üçün önəmi barədə danışıb.

Çıxışlar zamanı slaydlar nümayiş olunub. Sonra tədbir iştirakçıları muxtar respublikanın zəngin təbiətindən bəhs edən videoçarxa baxıblar.

Sonda Tələbə Turizm Assosiasiyasının hazırladığı guşə ilə tanışlıq olub.

**Nail ƏSGƏROV**

# Startaplar ilə bağlı maarifləndirici tədbirlər olub



Naxçıvan Dövlət Universitetində "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" aprelin 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədən irəli gələn məsələlərə dair tədbir olub.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, Ali Məclis Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı kadr hazırlığına müasir yanaşmanı və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin etmək məqsədi daşıyır.

Rektor bildirib ki, qarşıya qoyulan vəzifə muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır. Belə layihələrin həyata keçirilməsi nəticəsində tələbə komandaları azad sahibkarlığın prinsiplərini öyrənir, öz ideyalarını təcrübədə tətbiq edir və əldə etdikləri bilikləri digərləri ilə bölüşürlər.

Universitetin İqtisad fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərov vurğulayıb ki, innovasiya, texnologiya, fəaliyyət müddəti, əhatə dairəsi, maliyyələşmə startapı kiçik biznesdən fərqləndirir.

Ali təhsil müəssisələri və biznes strukturları arasında partnyorluq, tərəfdaşlıq və əməkdaşlıq yaradan "Enactus" layihəsindən də söhbət açılıb. Diqqətə çatdırılıb ki, "Enactus" biznesin müsbət gücü ilə daha yaxşı və daha davamlı dünya yaratmaq üçün bu günün və sabahın liderlərini bir yerə toplayan beynəlxalq təşkilatdır.

Mühasibat uçotu və audit ixtisası üzrə IV kurs tələbəsi Kərim Nəcəfov muxtar respublikanı təmsil edən "NoahLand" komandasının tərkibində Naxçıvan Dövlət Universiteti tələbələrinin təşkil etdiyi layihə əsasında finalda iştirak hüququ qazandıqlarını diqqətə çatdırıb. Vurğulanıb ki, əsas ideyası ekstremal idman növlərinin və düşərgələrin bir portalda cəmləşdirilməsinə xidmət edən layihənin məqsədi Naxçıvanı tanıtmaq üçün muxtar respublikaya turist cəlb etmək, ənənəvi turizm turları ilə yanaşı, xarici turlar təşkil etmək, Naxçıvanda onlayn turizm saytı yaratmaqdır. Qeyd edilib ki, sonrakı mərhələdə isə bu ideyanın Azərbaycanda genişləndirilməsinə nail olmaq startap komandasının vəzifələrinə daxildir.

Sonda "Startap layihələri və innovativ inkişaf" filmi nümayiş olunub.

**Səadət ƏLİYEVA**

* * *



Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı hazırlanmış tədbirlər planı çərçivəsində "Naxçıvan" Universitetinin İqtisadiyyat fakültəsində təhsil alan tələbələrlə görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının əhəmiyyətindən danışıb.

Qeyd edilib ki, ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi bilikli və təcrübəli gənc kadrların hazırlanmasına böyük imkanlar yaradacaqdır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlıq şöbəsinin müdiri Mircavid Tağızadənin "Naxçıvan Muxtar Respublikasında sahibkarlıq mühitinin mövcud vəziyyəti, özəl sektorun Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında rolu", "Cahan Holdinq" Şirkətlər İttifaqının prezidenti, Naxçıvan Muxtar Respublikasının Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasovun "Cahan Holdinq"in Şirkətlər İttifaqının fəaliyyət sahələri və biznesin təşkili", Elmi-Tədqiqat və Tədris Mərkəzinin elmi işçisi Mehparə Məmmədovanın "Startap" layihələrinin təqdimatı" mövzularında çıxışları dinlənilib.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Seyfur HACIMURADOV**

*AMEA Naxçıvan Bölməsində "Pedaqoji fikir tarixindən" kitabının təqdimatı keçirilib.*

# Yeni nəşr pedaqoji fikir tariximizə dəyərli töhfədir



Bölmənin sədri, akademik İsmayıl Hacıyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, "Pedaqoji fikir tarixindən" kitabı muxtar respublikanın təhsil ictimaiyyəti üçün ən dəyərli nəşrlərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Ali Məclisin Sədri tərəfindən təsdiq olunmuş 2019-cu il üzrə Tədbirlər Planına əsasən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində 10 min tirajla nəşr olunan bu kitabın 8 mindən çoxu muxtar respublikanın təhsil müəssisələrinin kitabxanalarına və müəllimlərə verilib.

Vurğulanıb ki, kitabda Azərbaycan və dünya pedaqoji fikrinin ən zəruri və dəyərli nümunələri seçilərək toplu halında oxuculara çatdırılıb. "Pedaqoji fikir tarixindən" kitabının elmi-pedaqoji əhəmiyyəti, təlim-tərbiyə prosesində, eləcə də gənc nəsildə vətənpərvərliyin formalaşmasında mühüm rolu nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na əlavə edilib.

Akademik belə dəyərli nəşrin ərsəyə gəlməsində göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə dərin minnətdarlığını bildirib.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə məktubu" və böyük rus pedaqoqları K.D.Uşinski, A.O.Çernyayevski və V.A.Suxomlinskinin pedaqoji görüşləri", bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Pedaqogikada misligörünməmiş təcrübə", həmin institutun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımov "Azərbaycan maarifçilərinin pedaqoji fikir tarixində yeri" mövzularında çıxış ediblər.

Vurğulanıb ki, kitabda ayrı-ayrı görkəmli maarifpərvər şəxsiyyətlərin, elm xadimlərinin, pedaqoqların pedaqoji görüşləri, təhsil məsələləri haqqında dəyərli fikirləri öz əksini tapıb. Kitab "ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktub"la başlayır. Bu məktub həcminə görə qısa olmasına baxmayaraq, bu günün müəllimlərinə sanki yol göstərir, onun üzərinə mühüm vəzifələr qoyur. Publisist-politoloq Reyhan Mirzəzadənin kitabda verilmiş "Uşinskinin, Çernyayevskinin, Suxomlinskinin əziz xatirəsinə" və "Pedaqogikada misligörünməmiş təcrübə" adlı irihəcmli tədqiqatları özünün fundamentallığı və konseptuallığı ilə maraq doğurur.

Kitabda Azərbaycan maarifçiləri Cəlil Məmmədquluzadənin, Məhəmməd Tağı Sidqinin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, Eynəli bəy Sultanovun, Məhəmməd ağa Şahtaxtlının, Məmməd Səid Ordubadinin əsərlərindən verilmiş seçmələr də tərbiyəvi-didaktik qayəsi ilə səciyyələnir.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Bu il dahi Hüseyn Cavidin yadigarı – bəstəkar, şair, dramaturq, rəssam, tədqiqatçı, folklorçu Ərtoğrol Cavidin 100 yaşı tamam olur. Ərtoğrol Cavid oğlu Rasizadə 22 oktyabr 1919-cu ildə Bakı şəhərində dünyaya gəlmişdir. Ərtoğrolun uşaqlıq və yeniyetmə illəri sənətkarlar əhatəsində keçmiş, onun mənəviyyatı, demək olar ki, poeziya , musiqi ilə yoğrulmuşdu. Hüseyn Cavid, onun həmfikirləri, dostları Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Abbas Mirzə Şərifzadə, Hənəfi Terequlov, Pənah Qasımov və digər sənət adamları bu ocağın, poeziya, musiqi məclislərinin daimi qonaqları idi. Belə bir yaradıcı mühitdə böyüyürdü gələcəyinə böyük ümidlər bəslənilən Ərtoğrol. Üzeyir bəyin məsləhəti, nəzarəti ilə musiqi aləminə baş vuran Ərtoğrolu ilk baxışda işıqlı sənət yolu gözləyirdi... Lakin bir çox ailələrin, eləcə də Hüseyn Cavid ailəsinin ahəngini pozan repressiya illəri Ərtoğrolun xəyallarının, arzularının üstündən xətt çəkdi.*

**Ərtoğrol Cavid – 100**

# Hüseyn Cavid ömrünün yarımçıq əsərlərindən biri...



Hər dəfə Hüseyn Cavidin ailəsinin başına gələn fəlakətlər yadımıza düşdükcə, istər-istəməz əhvalımız pozulur, dərin düşüncələrə qərq oluruq. İnsanın insana qarşı insanlığa sığmayan “oyunları” bizi təəccübləndirir.

Gənc yaşlarından həyatın amansız zərbələrinə məruz qalan Ərtoğrolun nakam həyatı, keçirdiyi mənəvi sarsıntılar başqaları kimi bizi də düşündürür, həyəcanlandırır. Taleyin qəddar zərbələrinə baxmayaraq, Ərtoğrolun ömrünün son günlərinədək yazıb-yaratması, mübarizə aparması, sınmaması onu daha da ucaldır, qəlbimizdə ideal bir insan kimi yaşadır.

Yaşadığı qısa – 24 il ərzində yaratdığı əsərlərə, gördüyü işlərə nəzər saldıqda fikirləşirsən ki, az bir müddət ərzində bu qədər əsərlər yaradan insan tam bir ömür yaşasaydı, gör musiqi xəzinəmiz dəyərli əsərlərlə nə qədər zənginləşərdi?

Nota köçürdüyü 200-dən çox el havaları, mətnləri, yazıya aldığı çoxsaylı dastan və nağıllar, fortepiano üçün “9 variasiya”, “Sonatina”, prelüdlər, miniatürlər, pyeslər, musiqi lövhələri, skripka və fortepiano üçün “Poema”, “Cəbhədən məktub” simfonik balladası, nəfəsli orkestr üçün marşlar, klassiklərimizin sözlərinə mahnı və romanslar, instrumental və kamera əsərləri, tamamlanmamış “Şeyx Sənan”, “Məhsəti” operaları istedadlı bəstəkar Ərtoğrol Cavidin kiçik yaradıcı ömrünün həm məzmun, həm də forma baxımından böyük dəyərli əsərləridir.

Poeziya sahəsində yazdığı 50-dək şeirə, dram əsərlərinə, ustalıqla çəkdiyi rəsm əsərlərinə gəlincə, Uca Tanrının Ərtoğrol Cavidə bəxş etdiyi fitri istedada, zəhmətsevər, məqsədyönlü, mübariz həyat tərzinə heyran qalmaya bilmirsən.

Repressiya illərinin mənəvi sarsıntılarını yaşayan, “xalq düşməni” damğası vurulmuş ailə üzvlərinin didərgin, çarəsiz həyatları belə, Böyük Vətən savaşının qurbanı Ərtoğrolu son günlərinədək mübarizədən, yaradıcılıqdan çəkindirməyə gücü yetmədi. Kim olsaydı, həyatın bu zərbələrinə dözməzdi, sınardı, yaradıcılıqdan əl çəkərdi. Hələ, üstəlik, dost, tanış, yaxın bildikləri bəzi insanların etibarsızlığı ruhdan salmadı gənc Ərtoğrolu. Sənətinə, milli musiqiyə, xalqına olan böyük sevgi taleyin ədalətsiz oyunlarına qalib gəldi. Ərtoğrol ən ağır vəziyyətdə, şəraitdə belə, yazdı, yaratdı.

1936-1940-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsində təhsil aldı. İnstitutu fərqlənmə diplomu ilə bitirdi. Elə həmin il Üzeyir bəyin xeyir-duası ilə Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsinə daxil oldu və bəstəkarlığın, xalq musiqisinin sirlərini dahi Üzeyir bəy Hacıbəylidən, görkəmli pedaqoq Boris Zeydmandan öyrəndi. Konservatoriyanın nəzdində musiqi məktəbində dərs dedi, musiqi elmi-tədqiqat kabinetində çalışdı, tərcümələr edib ailəsinə kömək etdi.

Böyük Vətən müharibəsi bir çox gənclərimiz kimi, Ərtoğrolun da



arzularını, xəyallarını darmadağın etdi. 1942-ci ildə “xalq düşməni”nin oğlu Ərtoğrol Gürcüstandakı fəhlə batalyonunda ağır, dözülməz işlərə cəlb olunur. Fəhlə batalyonunda ağır işlər onsuz da fiziki cəhətdən zəifləyən Ərtoğrolun xəstələnməsinə səbəb olur, xəstəxanaya düşür. Xəstəliyin ən ağır zamanında belə, yazdıqlarını nəzərdən keçirir, ruhdan düşmür, arzularla yaşayır. Daha doğrusu, ailəsini yaşatmaq üçün, onlara arxa durmaq üçün həyat uğrunda mübarizə aparır. Lakin həyatın gözlənilməz, qəddar zərbələri, amansız, çarəsiz xəstəlik bu arzuların gerçəkləşməsinə mane olur. 1943-cü ildə Ərtoğrol Cavid ata-baba yurdu Naxçıvana gəlir, qədim Naxçıvan, qohumları Cavid əfəndinin yadigarını ağuşuna alır. Onu əzizləyib, yaşaması üçün qulluğunda dururlar. Sanki torpaq da qısqanclıqla yanaşır bu hörmətə, sevgiyə. O da qəlbini açıb Ərtoğrolu qoynuna alır.

*“Sevgiyə, məhəbbətə,*
*Qısqandı səni torpaq*
*“Sənə göz dəyməsin” deyə*
*Sinəsində – qəlbində gizlətdi səni torpaq”. (N.P.)*

1943-cü il noyabrın 14-də Cavid əfəndinin dünyaya gəldiyi diyarda – Naxçıvan şəhərində dünyasını dəyişir Ərtoğrol Cavid oğlu Rasizadə.

Yaşadığı qısa ömür ərzində yaratdığı musiqi əsərləri bu gün konsert salonlarında səslənir, musiqi məktəblərində tədris olunur. Yazıb-yaratdığı, topladığı, gələcək nəsil üçün qoruyub saxladığı sənət inciləri öz tədqiqatını, təbliğatını gözləyir.

Bu baxımdan Hüseyn Cavidin ev-muzeyinin rəhbəri Gülbəniz xanım Babaxanlının təşəbbüsü və tərtibatı ilə nəşr olunmuş 13 cildlik “Azərbaycan Qeyri-Maddi Mədəniyyət Abidələri və Ərtoğrol Cavid” toplusunun 11-ci cildi haqqında qısa məlumat vermək yerinə düşərdi.

“Balaban məktəbi” adlı tədris vəsaitini əhatə edən cilddə Azərbaycanımızın milli musiqi aləti olan balaban üçün yazılan bu dərslik, xalq musiqimizin bilicisi, musiqişünas Saleh Əbdüləlimov tərəfindən ərsəyə gətirilən ilk dərslikdir. “Balaban məktəbi” dərsliyinin 1937-ci ildə Üzeyir bəyin xeyir-duasını aldığına baxmayaraq, nəşri mümkün olmamışdır. Sonralar bu alət üçün dərslik Azərbaycanda yaşayan erməni tərəfindən tərtib olunaraq çap edilmiş və musiqi məktəblərimizdə tədris olunmuşdur.

Göründüyü kimi, doğma Qarabağımızın bu gün işğal altında olması, məhz ermənilərin hələ illər öncə mədəniyyətimizin, incəsənətimizin işğalı ilə başlamışdır, – desək, yanılmarıq.

Ərtoğrol Cavid Saleh Əbdüləlimovun “Balaban məktəbi” dərsliyinin orijinalını, eləcə də dərsliyin müzakirəsi zamanı qeyd edilən iclas protokollarını mühafizə edərək onları rus dilindən Azərbaycan dilinə tərcümə etmiş, öz arxivində qoruyub saxlamışdır. Yalnız qeyd etdiyimiz bu fakt Ərtoğrol Cavidi xalq musiqimizin, musiqi alətlərimizin qoruyucusu, təbliğatçısı kimi dəyərləndirməyə əsas verir.

Ümidvarıq ki, Ərtoğrol Cavid yaradıcılığı bundan sonra da tədqiqatçı və alimlərimizin, musiqi ifaçılarımızın diqqətindən kənarda qalmayacaqdır.

Dünya şöhrətli görkəmli siyasi xadim Heydər Əliyevin boya-başa çatdığı Naxçıvan torpağında möhtəşəm sənət əsəri – Hüseyn Cavid məqbərəsi ucalıb. Cavidin bir-birindən uzaq düşmüş ailə üzvləri bu məqbərədə yenidən birləşiblər, ayrılığa son qoyulub. Hüseyn Cavid ruhu yenə əvvəlki tək öz ocağının başına dolanır, əzizlərini qoruyur – vəfalı ömür-gün yoldaşı Müşginaz xanımı, sevimli Turananı, bir də ki, Cavid ömrünün natamam əsəri – Ərtoğrolu.

*Bu gün öz doğma yurdlarında Cavidlər irsinə və şəxsiyyətinə yüksək ehtiram onların talelərində yaşadıqları acı iztirablara ən şəfalı məlhəmdir. Naxçıvan Muxtar Respublikası rəhbərinin təşəbbüsü ilə Naxçıvan Şəhər İncəsənət Məktəbinə Ərtoğrol Cavidin adı verilmişdir. Ərtoğrol Cavid adına Naxçıvan Şəhər İncəsənət Məktəbi bu gün musiqi mədəniyyətimiz üçün Ərtoğrollar yetişdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ərtoğrol Cavidin 100 illik yubileyinin keçirilməsi haqqında” 2019-cu il 18 aprel tarixli Sərəncamı isə Azərbaycan mədəniyyətinin dəyərli simalarından biri, zəngin irs yaradan tanınmış musiqişünas, rəssam və tədqiqatçının həyat və fəaliyyətinin tədqiqi və təbliğində yeni mərhələnin əsasını qoyacaq, görkəmli sənətkarı gələcək nəsillərə daha dərindən tanıtdıracaq.*

**Tofiq BAKIXANOV**
***Xalq artisti, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, “Şöhrət” ordenli professor***
**Nazim Paşa QULİYEV**
***Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar***

# İranlı gənclər muxtar respublikamızda olublar



Azərbaycan Respublikası və İran İslam Respublikası gənclərinin dostluq həftəsi çərçivəsində İran İslam Respublikasının bir qrup gəncinin Naxçıvan Muxtar Respublikasına ekskursiyası təşkil olunub. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkil etdiyi ekskursiyada iranlı gənclər muxtar respublikamızın bir çox tarixi və mədəni abidələri ilə yaxından tanış olublar.



Əvvəlcə qonaqlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində olublar. Muzeydə Azərbaycanın müasir dövlətçilik tarixi, ulu öndərin siyasi fəaliyyəti ilə bağlı eksponatlar qonaqlarda zəngin təəssürat yaradıb. Gənclər Mərkəzində olan iranlı gənclər daha sonra “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Möminə xatın türbəsi və Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət ediblər. Günün ikinci yarısında isə qonaqlar ilk olaraq Naxçıvan Dövlət Universitetində yaradılan şəraitlə tanış olublar. “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, Duzdağ Fizioterapiya və Naxçıvan Biznes mərkəzləri ilə tanışlıq onlarda böyük maraq yaradıb.



***Elşən Hüseynov – Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Elm və təhsil şöbəsinin tələbə və tələbə təşkilatları ilə iş sektorunun müdiri:*** – Naxçıvan Muxtar Respublikasına səfər Azərbaycan və İran İslam Respublikası gənclərinin dostluğunun möhkəmləndirilməsinə xidmət edir.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü ilin aprel ayında İran İslam Respublikasında rəsmi səfərdə olarkən iki ölkə arasında müxtəlif sahələr, o cümlədən gənclər və idman sahəsi üzrə Azərbaycan Respublikasının Gənclər və İdman və İran İslam Respublikasının İdman və Gənclər nazirlikləri arasında əməkdaşlıq sazişi imzalanıb. Dostluq həftəsi də həmin sazişə əsasən keçirilir. Onu da deyim ki, həmin sənədin ilk icrasını Azərbaycan Respublikası olaraq öz üzərimizə götürmüşük. Dostluq həftəsinin həyata keçirilməsi ilə bağlı geniş proqram tərtib olunub. Proqrama əsasən İran İslam Respublikasının müxtəlif şəhərlərindən gələn gənclər Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin tələbələri ilə görüşüblər. İranlı gənclər əvvəlcə Bakıda Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasında, Naxçıvanda isə təhsil, səhiyyə, mədəniyyət müəssisələrində olub, tarixi abidələri ziyarət ediblər.



***Məmmədrza Xedri – Azad İslam Universitetinin müəllimi:*** – Bu, mənim Naxçıvan Muxtar Respublikasına ilk səfərimdir. Naxçıvan barədə məlumatım var idi və burada olmaq mənə hər zaman maraqlı gəlirdi. Azərbaycanda “İran İslam Respublikasının gənclər həftəsi” çərçivəsində bura səfərimiz bizi xeyli sevindirdi. Gün ərzində bir çox görməli yerləri gəzdik. Heydər Əliyev Muzeyinin əzəməti hamımızı valeh etdi. Bununla yanaşı, Möminə xatın türbəsi, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə ekskursiya zamanı da xeyli məlumat aldıq. Naxçıvan Dövlət Universitetinə ekskursiya zamanı burada keçilən dərslərlə yaxından tanış olduq. Naxçıvanın təmiz və gözəlliyi bizləri heyran etdi. Yeməkləriniz isə dadı və mükəmməlliyi ilə seçilir. Deyə bilərəm ki, ilk dəfə səfərdə olduğum Naxçıvan məndə xoş təəssüratlar yaratdı.



***Səba Zinati – İran İslam Respublikası Fondunun meneceri:*** – Naxçıvan Muxtar Respublikasına səfərimiz çərçivəsində bir çox yerlərdə olduq. Məni daha çox cəlb edən buranın sakitliyi, təmizliyi və insanların qonaqpərvərliyidir. Bir çox insanla ünsiyyətdə oldum. Hər kəs bizimlə səmimi və gülərüzlə danışır, xoş davranır.

Naxçıvan ilə sərhəddə yaşayan vətəndaşlarımızla söhbətimdə buranın gözəlliyi barədə çox eşitmişdim. Ancaq etiraf edim ki, belə heyranedici bir diyar olduğunu təsəvvür etmirdim. Burada bir çox tarixi-memarlıq abidələri var, Möminə xatın türbəsi isə məni daha çox valeh etdi. Bu layihə vasitəsilə Naxçıvana gəldiyim üçün özümü xoşbəxt hiss edirəm.

✍ **Ceyhun MƏMMƏDOV**

# Zəmanənin yaratdığı “Molla Nəsrəddin”

*Azərbaycan mətbuatı tarixində özünəməxsus yer tutan mətbu orqanları içərisində “Molla Nəsrəddin” jurnalının rolu əvəzsizdir. Jurnal yarandığı ilk gündən Azərbaycan mətbuatının inkişafına güclü təsir göstərmiş, milli ideyalılığı, xalqa bağlılığı, ana dilinə sevgisi ilə seçilmişdir. 25 il ərzində çap olunan “Molla Nəsrəddin” jurnalının hər nömrəsində Cəlil Məmmədquluzadənin “Vətən, millət, dil” ideyası özünü göstərmişdir. Cəlil Məmmədquluzadə irsinə və şəxsiyyətinə yüksək qiymət verən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir:* ***“Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz “Molla Nəsrəddin” jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir”.***




“Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illik yubileyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 17 yanvar tarixli Sərəncamında deyilir: ***“Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən “Molla Nəsrəddin” jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur”.***

Azərbaycan satirik mətbuatının zirvəsi sayılan “Molla Nəsrəddin” jurnalının ilk sayı 1906-cı il aprel ayının 20-də Tiflisdə işıq üzü görüb. Jurnalın birinci sayı min nüsxə ilə çap olunub yayılandan sonra jurnalın ikinci sayı iki min nüsxə ilə çıxdı. Jurnalın şəkillərinin qırmızı rəngdə olması Bakı Polis İdarəsini bərk təşvişə saldı. Bakı Polis İdarəsi bolşevizmin mahiyyətinin qırmızı rəngdə təcəssüm olunmasını əsas gətirib, “Molla Nəsrəddin”in ikinci sayını, bütövlükdə, müsadirə etdi. Jurnalın, deməli olar ki, 1906-1918-ci illərdə Tiflisdə nəşr olunan 340, 1921-ci ildə Təbrizdə nəşr olunan 8, 1922-1931-ci illərdə Bakıda çap olunan 400 nömrəsinin hər biri eyni qorxu, eyni təşvişlə qarşılanmışdır.

Cəlil Məmmədquluzadə 1906-cı il fevralın 21-də Tiflis general-qubernatoruna ərizə ilə müraciət edərək “Qeyrət” mətbəəsində Azərbaycan dilində “Molla Nəsrəddin” adlı həftəlik satirik-yumoristik jurnal çıxarmağa icazə istəmişdir. Cəlil Məmmədquluzadənin “qeyri-qanuni hərəkətdə olmadığını” təsdiq edən arayışdan sonra jurnalın nəşrinə icazə verilmişdir. 1906-cı il martın 4-də hökumət tərəfindən Cəlil Məmmədquluzadəyə verilmiş vəsiqədə jurnalın məqalələr, atmacalar, felyetonlar, məzəli şeirlər, məzhəki teleqramlar, satirik hekayələr, lətifələr, poçta qutusu, məzhəki elanlar, xüsusi elanlar, karikatura və illüstrasiyalara nəşrə başlaması göstərilirdi. Jurnalın 500 nüsxəsi “bir günün ərzində günortayadək”, qalan 500-ü isə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin gərgin əməyi sayəsində gecədən səhərədək çap olunmuşdur. Cəlil Məmmədquluzadənin öz dili ilə desək, “Molla Nəsrəddin”i təbiət özü yaratdı, zəmanə özü yaratdı”.

Jurnalın birinci nömrəsində proqram səciyyəvi baş məqalədə Cəlil Məmmədquluzadə üzünü doğma xalqına tutub məqsəd və məramını belə bəyan etmişdi: “Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım...” Jurnalın nəşrə başlaması münasibətilə Azərbaycanın mütərəqqi ziyalıları Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Firudin bəy Köçərli, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev “Kaspi”, “İrşad”, “Baku” və sair qəzetlərdə Cəlil Məmmədquluzadəni təbrik etmiş və müvafiq məqalələr dərc etdirmişlər. Cəlil Məmmədquluzadə jurnalın ilk nömrəsinin işıq üzü görməsi münasibətilə Rusiyanın bir çox yerlərindən təbrik məktubları, teleqramlar da almışdı.

Jurnalın Tiflisdə nəşrə başlamasına səbəb həmin dövrdə bir sıra mütərəqqi ziyalıların, eləcə də Cəlil Məmmədquluzadənin özünün 1903-cü ilin dekabr ayından bu şəhərdə yaşaması idi. Həmin dövrdə “Tiflis Qafqazın mərkəzi şəhəri və Qafqaz hökumətinin paytaxtı” kimi böyük rola malik idi. Digər tərəfdən, jurnalın redaksiya məsələlərinin və maliyyə problemlərinin həllində Cəlil Məmmədquluzadəyə köməklik göstərən Ömər Faiq Nemanzadə və Məşədi Ələsgər Bağırov da Tiflisdə yaşayırdı. Dövrün məşhur ziyalıları Məhəmmədağa Şahtaxtlı, Əbdüssəlam Axundzadə, Səmədağa Qayıbov, Məhəmmədağa Vəkilov, Eynəli bəy Sultanov, Hüseyn Minasazov və başqaları da həmin dövrdə Tiflisdə yaşayırdılar.

“Molla Nəsrəddin” jurnalı tez bir zaman içərisində öz ətrafına Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Razi Şəmçizadə, Bayraməli Abbaszadə kimi qüdrətli şair və yazıçıları, Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə, Xəlil Musayev kimi rəssamları toplaya bildi. Jurnalın Təbrizdə çıxan nömrələrinin karikaturalarını çəkmək üçün Seyid Əli Behzad cəlb olunmuşdu.

“Molla Nəsrəddin” jurnalı təkcə Azərbaycan xalqını qəflət yuxusundan oyatmağı qarşısına məqsəd qoymamışdı. Bu jurnal bütün Şərq aləmində, Türk dünyasında, müsəlman aləmində sevilmiş, böyük şöhrət qazanmışdır. Cəlil Məmmədquluzadə özü bu barədə belə yazmışdı: “Bizim birinci işimiz, birinci vəzifəmiz gözümüzün qabağında dərin yuxuda olan İslam milləti idi... Bizim qabağımızda dağ kimi duran istibdad – Şərq istibdadı və Şərq qaranlığı idi...”

Jurnalda dil məsələsinə xüsusi önəm verilirdi. “Molla Nəsrəddin” ərəbçiliyə, farsçılığa, osmançılığa, həm də dili lüzumsuz yerə rus sözləri ilə korlayanlara qarşı amansız idi. Jurnalda verilən bir şəkildə təsvir olunur ki, bir nəfər azərbaycanlını yerə yıxıb onun ağzına zorla üstündə ərəb, fars, rus sözləri yazılmış dili soxurlar. Azərbaycanlı isə deyir: “Ay qardaşlar! Mən ki, dilsiz xalq olunmamışam, dilləri ağzıma soxursunuz...”

Jurnalda qadın azadlığı məsələsi də həmişə ön planda olmuşdur. Cəlil Məmmədquluzadə “Köhnə dərdim” adlı məqaləsində qadın azadlığı məsələsinə toxunaraq yazırdı: “Şərq qadını məsələsi mənim köhnə dərdimdir... Nədir onların dərdi? Şərq qadınını azad etmək. Nədən?.. Şəriətin kəməndindən, müsəlmançılığın zəncirindən, hərəmxanaların zindanından, qara çarşabın zülmətindən…”

Təbiidir ki, həmin dövrdə Cəlil Məmmədquluzadə ciddi təqiblərə məruz qalmış, evində, “Qeyrət” mətbəəsində dəfələrlə axtarışlar aparılmış, ünvanına qəzəb dolu, hədələyici məktublar gəlmişdir. Amma heç bir qorxu, hədə bu böyük şəxsiyyəti, böyük vətənpərvəri öz yolundan döndərə bilməmişdir. Mirzə Cəlil “Molla Nəsrəddin” jurnalı vasitəsilə Azərbaycanda “mollanəsrəddinçilər” adlanan yeni ədəbi məktəbin əsasını qoymuşdur. Jurnalın Tiflisdə sonuncu nömrəsi 25 dekabr 1917-ci ildə (köhnə təqvimlə 1918-ci il yanvar ayının 7-də) nəşr edilmişdir.

Cəlil Məmmədquluzadə irsinin ən böyük tədqiqatçısı akademik İsa Həbibbəyli yazır: *“Molla Nəsrəddinin nəşrinin Təbriz dövrü və Bakı mərhələsi mətbuat karvanının Tiflisdən başlanan tarixi səfərinin qanunauyğun davamıdır”.*

“Molla Nəsrəddin”in məqsəd və məramı jurnalın birinci sayından məlum idi. Jurnal birinci nömrəsinin üz qabığında həmvətənlərini yatmış vəziyyətdə göstərməklə onları qəflət yuxusundan oyatmaq məqsədi daşıdığını bəyan edirdi. “Molla Nəsrəddin” Şərq xalqlarının vəziyyətinə də biganə qalmırdı. Birinci rus inqilabı dövründə imperializm müstəmləkə siyasətini daha də gücləndirir, ictimai-siyasi hadisələrdən öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Belə bir dövrdə jurnal yazırdı: “Əzizim amerikalı, indi buyur görək nə məqsədlə dünyanın o başından bu başına gəlmisən? Mənim yəqinimdir ki, sənin xəyalında bir biclik var. Məsələn, bu məqsədlə gəlibsən ki, biçarə müsəlmanları tovlayıb axırda imtiyaz sahibi olasan və bizi fəhlə kimi işlədib öz əlimiz ilə qazandığımız pulları doldurasan cibinə və axırda da Xorasan xalılarından, Buxara dərilərindən, Naxçıvan cecimlərindən, Şamaxı şallarından, Tehran şiri-xurşidindən bir yük tutub Vətənə sovqat aparasan və gedib Amerikada bir kitab yazasan və həmin kitabda mollalarımızı tərifləyəsən”.

“Molla Nəsrəddin”in təsiri ilə 1907-1917-ci illərdə “Bəhlul”, “Zənbur”, “Arı”, “Kəlniyət”, “Məzəli”, “Tuti”, “Babayi-Əmir” kimi mətbuat orqanları yarandı və bu jurnalın davamçıları kimi fəaliyyət göstərdi.

1920-ci ildə Cəlil Məmmədquluzadə öz ailəsi ilə Təbrizə getdi və 1921-ci ilin fevralında “Molla Nəsrəddin” jurnalı burada nəşr olundu. Təbrizdə jurnalın 8 nömrəsi çap edildi. Burada da Mirzə Cəlil çətinliklərlə üzləşir. Onun “Molla Nəsrəddin”i azərbaycanca nəşr etdirmək istəyinə İran hökuməti icazə verməmişdi ki, gərək farsca çap olunsun. Onda Mirzə Cəlil demişdi: “Təbrizdə ermənilər ermənicə qəzet çıxarırlar. Siz isə Azərbaycan dilində jurnal nəşr etməyə icazə vermirsiniz. Elə isə icazə verin “Molla Nəsrəddin”i erməni dilində nəşr edim”. Bu sərt sözdən sonra jurnalın Təbrizdə ana dilində nəşrinə icazə verilir. Jurnalın Bakıda ilk nəşri 1922-ci ilin noyabrında, son nömrəsi isə 1931-ci ildə buraxılmışdı.

Cəlil Məmmədquluzadənin ayrı-ayrı dövrlərdə 100, 125, 140 illik yubileyləri böyük təntənə ilə qeyd olunmuşdur. 2006-cı il yanvar ayının 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı “Molla Nəsrəddin” jurnalının 100 illik yubileyi haqqında” Sərəncama uyğun olaraq jurnalın 100 illiyi dövlət səviyyəsində geniş qeyd olunmuşdur. Bu isə ölməz Cəlil Məmmədquluzadə irsinə hörmət və məhəbbətin bariz ifadəsi idi.

Görkəmli yazıçı Cəlil Məmmədquluzadənin Naxçıvan Muxtar Respublikasında xatirəsi əbədiləşdirilmiş, Naxçıvan şəhərində onun əzəmətli heykəli ucaldılmışdır. Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi onun adını daşıyır. Ölməz yazıçının Naxçıvan şəhərində ev-muzeyi, Şərur rayonunun Cəlilkəndində, Babək rayonunun Nehrəm kəndində Xatirə muzeyləri fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Oxunması zəruri olan kitabların Siyahısı”na görkəmli ədibin “Hekayələr”i də daxil edilmişdir. 2009-cu ildə isə ədibin 140 illiyi münasibətilə Naxçıvanda “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində “Seçilmiş əsərləri” iki cilddə nəfis tərtibatla çap olunmuşdur.

*Cəlil Məmmədquluzadə ölməz dram və nəsr əsərləri, publisistikası və yaşaması üçün bütün həyatını həsr etdiyi “Molla Nəsrəddin” jurnalı ilə xalqımızın qəlbində və yaddaşında yaşayır, bundan sonra da yaşayacaqdır.*

**Asim YADİGAR**
***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri***

---

*Naxçıvan Muxtar Respublika Stadionunda sağlamlıq imkanları məhdud şəxslər arasında yüngül atletikanın qaçış növü üzrə “Naxçıvan Muxtar Respublikası – 95” devizi altında birincilik keçirilib.*

# Qaliblər müəyyənləşib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyasının birgə təşkil etdikləri birincilikdə 21 idmançı mübarizə aparıb.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Cabbarov bildirib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, idman sahəsində də mühüm işlər görülür. Yaradılan şəraitdən səmərəli istifadə edən gənclər bütün idman növlərinə maraq göstərirlər. Bu gün muxtar respublikada fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası, sosial reabilitasiyası sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, onlar arasında idmanın kütləviliyinə nail olunmasına çalışılır. Həmçinin gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində də davamlı tədbirlər görülür. Nazir yarışda iştirak edən bütün idmançılara uğurlar arzulayıb.

Paralimpiya Federasiyasının sədri Nicat Babayev çıxış edərək deyib ki, muxtar respublikada məhdud fiziki imkanlı insanların rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Bütün sahələrdə müşahidə olunan dinamik inkişaf bu təbəqədən olan şəxslərin də sosial müdafiəsinin güclənməsinə hərtərəfli şərait yaradıb. Məhdud fiziki imkanlı insanlara tibbi və sosial reabilitasiya xidmətləri göstərilir, sağlamlıq imkanları məhdud olan şəxslərin idmana cəlbi yönündə işlər görülür. Keçirilən yarış da bunun bariz nümunəsidir.

Vurğulanıb ki, Paralimpiya Federasiyası bundan sonrakı fəaliyyətini günün tələbləri səviyyəsində quracaq, sağlamlıq imkanları məhdud insanların idmana cəlbinə diqqətlə yanaşacaqdır.

Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıq edib, qarşıya qoyulan vəzifə və tapşırıqların icrasında səylə çalışacaqlarını bildirib.

Sonda yarışda fərqlənən idmançılara və iştirakçılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

---

# Peyntbol üzrə muxtar respublika birinciliyi keçirilib

***Naxçıvan Muxtar Respublikası Atıcılıq Mərkəzində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında peyntbol üzrə muxtar respublika birinciliyi keçirilib.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının birgə təşkil etdiyi birincilikdə 7 komanda mübarizə aparıb.

Birinciliyin açılış mərasimində Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Atıcılıq Federasiyasının sədri Səhət Həbibbəyli çıxış edərək ölkəmizdə və eləcə də muxtar respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından bəhs ediblər.

Çıxış edənlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edərək atıcılıq idman növünün inkişafı istiqamətində qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetiriləcəyini, atıcılığın muxtar respublikamızda ən çox sevilən idman növlərindən biri səviyyəsinə qaldırılacağını qeyd ediblər.

Yarışın yekun nəticəsinə gəlincə, Naxçıvan Dövlət Universitetinin komandası qalib adını qazanıb. Naxçıvan Dövlət Texniki Kollecinin komandası ikinci, Naxçıvan Tibb Kollecinin komandası isə üçüncü olub.

Qalib komandalar diplom, peyntbol mərmiləri və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

---

**İtmişdir**

Türkiyə vətəndaşı Tong Serhatın adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 273